AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *AZƏRBAYCAN RESPUBLİKASI RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİNİN QƏRARI* |
| Qəbul edildiyi tarix | *03.03.2015* |
| Qeydiyyat nömrəsi | *0002* |
| Adı | *"İnternet rabitəsi xidmətlərindən istifadə Qaydaları"nın ləğv edilməsi barədə* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *11.03.2015* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *180.010.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *15201503030002* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *10.03.2015* |

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 19 iyun tarixli 185 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə"nin 5.5.3-cü yarımbəndinin icrası məqsədilə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Rabitə Nazirliyinin 2000-ci il 24 fevral tarixli 46 nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 2000-ci il 14 mart tarixli 598 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış "İnternet rabitəsi xidmətlərindən istifadə Qaydaları" ləğv edilsin.

2. Hüquq və insan resursları şöbəsinə (B. Məmmədov) tapşırılsın ki, bu qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

3. Bu qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

4. Sənədlərlə iş və təminat şöbəsinə (İ. Tağıyev) tapşırılsın ki, bu qərarın surətinin Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin struktur bölmələrinə, strukturuna daxil olan qurumlara və strukturuna daxil olmayan tabeliyindəki qurumlara göndərilməsini təmin etsin.

5. Qərarın icrasına nəzarət Aparatın rəhbəri V. Zeynalova həvalə edilsin.

**Nazir** **Ə. Abbasov**